# Oxucularımızın yaradıcılığı

## İdmançılara

Keçdim düzdən dərədən,
Zövq aldım mənzərədən.
Kanatla dağa qalxdım,
Ordan rayona baxdım.
Tək-tək kəndləri gördüm,
Ulduz-ulduz yanırdı.
Şəhərin mərkəzində
Bayraq dalğalanırdı.
Adamlar dəstə-dəstə,
Yığılırdı meydana.
Tədbir həsr olnumuşdu
Avropa idmanına.
Doğma Qəbələmizdə
Məşəl yandı gün kimi.
Meydan nura bələndi,
Hamı buna sevindi.
Arzum budur hər zaman
Məşəlimiz gur yansın.
Bizim ər idmançılar,
Çoxlu medal qazansın.

**Sədiyar SƏFƏRƏLİYEV.**
*Qəbələ şəhəri,*
*26 may 2015.*

## Avropa xoş gəlir Azərbaycana

Avropa xoş gəlir Azərbaycana--
Biz Azərbaycanın vətəndaşları
Sevirik idmanda bu yarışları.
İdmanın şöhrəti çatır hər yana,
Avropa xoş gəlir Azərbaycana.
Dünya bu qitədən çox şey götürüb,
Gələndə özüynən dostluq gətirib.
Alqış bu dostluğa, bu şöhrət-şana,
Avrorpa xoş gəlir Azərbaycana.
Bakı qarşınızda geniş ürəklə,
Xəzərin sahili ılıq küləklə
Sizi salamlayır bu dəniz ana,
Avrorpa xoş gəlir Azərbaycana.
Qoy daim qorusun dostluq bəşəri,
Odlar diyarının odlu məşəli.
Günəş tək nur saçır hey yana-yana,
Avrorpa xoş gəlir Azərbaycana.

**Rasim BAYRAM,**
**Nic qəsəbəsi.**

## Qəbələ

Tarixlərə yazılıbdı şöhrətin,
Əsrlərlə tükənməyib sərvətin,
İnsanların dağ qürurlu, həm mətin.
Cah-cəlalın düşüb dilə
Qəbələ, ay Qəbələ!
Yatmış gözəl oyanmasın amandı,
Çən dumana boyanmasın amandı,
Çaylarının həzin səsi kamandı—
Enir bəmə, qalxır zilə
Qəbələ, ay Qəbələ!
Nohur gölü gözəllərin gözüdü,
Yeddi gözəl gözəlliyin özüdü.
Gur şəlalər ürəklərin sözüdü
Gözəlliyi hardan alıbsan belə?
Qəbələ, ay Qəbələ!
Tufan dağı tufanlarla görüşür,
Sonqarından içsəm dərdim ötüşür,
İsti suyun şəfasından söz düşür,
Nələri demirəm hələ
Qəbələ, ay Qəbələ!
Elladayam, vurğununam mən sənin,
Ürəyimdə yeri var hər guşənin,
Sevinməkçin səndən ayrı düşənin
Gərəkdir ki, görüşünə çox gələ,
Qəbələ, ay Qəbələ!

**Ellada MAHMUDOVA,**
**Nic qəsəbəsi.**

## Amandı, çalma o zəngi

Ayrılıq dəmidir daha az qalıb,
Hərə bir tərəfdə xəyala dalıb,
Bayaqdan qanımız yaman qaralıb.
Amandır zəng çalan, çalma o zəngi!
Tələsmə nə olar bir az da ləngi!
Xəzan yarpağıtək əsir qəlbimiz,
Məktəbdən ayrılmaq istəmirik biz,
Nə qədər doğmadır, nə qədər əziz.
Amandır zəng çalan, çalma o zəngi!
Tələsmə nə olar bir az da ləngi!
Bu saat, bu dəqiqə «son zəng» çalacaq,
Bizi bir-birimizdən ayrı salacaq,
Kövrəlib gözümüz yaşla dolacaq.
Amandır zəng çalan, çalma o zəngi!
Tələsmə nə olar bir az da ləngi!
Nə olar, ey müəllimlər susmayın belə,
Durdurun bu zəngi çalmasın hələ,
Ayrılıq sözünü gətirməyin dilə.
Amandır zəng çalan, çalma o zəngi!
Tələsmə nə olar bir az da ləngi!
Unuldulmaz heç vaxt məktəb illəri,
Qəlbimizdə yaşar xatirələri,
Qaytara bilsəydik kaş o günləri...
Amandır zəng çalan, çalma o zəngi!
Tələsmə nə olar bir az da ləngi!
Nə olar zəng çalan, çalma o zəngi!..?

**Çələbi DÖNMƏZ,**
**Qəbələ rayonu.**

## Üçrəngli bayraq

Vətən, ana və bayraq,
Üçü də müqəddəsdir.
Müqəddəs bayrağımız
Üç rənglə bəzənmişdir.
Mavi, yaşıl, qırmızı,
Üstündə ay-ulduzu,
Hər yerdə dalğalanır,
Yüksəkərə ucalır.

**Mələykə ŞİRİNZADƏ,**
**şagird.**

# Məktəbli idmançıların uğurları

Azərbaycan Respublikası Təhsil Nazirliyi 2015-ci ilin aprel-may aylarında Bakı şəhərində keçiriləcək I Avropa Oyunlarının Proqramına daxil olan idman növlərinin məktəblilər arasında təbliğinə həsr edilmiş kütləvi idman tədbirləri təşkil etmişdir. Bakı şəhəri və müxtəlif zonalarda keçirilən tədbirlərdə Qəbələ Rayon Təhsil Şöbəsini təmsil edən komandalar və ayrı-ayrı məktəbli idmançılar fəal iştirak etmiş, bir çox uğurlar qazanmışlar.

Yüngül atletika üzrə İsmayıllı şəhərində keçirilən zona yarışlarında rayonumuzu Qəbələ Təhsil Şöbəsinin metodisti İbrahim Faxlulovun rəhbərliyi ilə 7 nəfərlik komanda təmsil etmişdir. Şəxsi birincilikdə Qəbələ şəhər 3 saylı tam orta məktəbin şagirdlərindən Cəfərov Rafiq Asif oğlu I yeri, Babazadə Səidə Məmmədşah qızı və Hidayətzadə Samirə Cavanşir qızı III yeri qazanmışlar. Komanda hesabında isə rayonumuz III yerdə qərarlaşmışdır.

Boks yarışları Balakən şəhərində keçirilmişdir. Burada 40 kq. çəki dərəcəsində döyüşən Qəbələ şəhər 4 saylı tam orta məktəbin şagirdi Yaralıyev Namiq Natiq oğlu bütün rəqiblərinə qalib gələrək I yeri əldə etmişdir.

Sərbəst güləş yarışları da Balakən şəhərində təşkil edilmişdir. Bu yarışlarda rayonumuzu Qəbələ Uşaq Gənclər İdman Məktəbinin məşqçi müəllimi Valeh Əzimov və onun yetirmələri təmsil etmişlər. Güləşçilərimizdən 32 kq. çəki dərəcəsində Məmmədov Vüqar Şahin oğlu II yeri, 38 kq. çəki dərəcəsində isə Şəfiyev Əmrah Ramiz oğlu III yeri qazanmışdır.

Şəki şəhərində keçirilən stolüstü tennis yarışlarında da rayonumuzu Qəbələ Uşaq-Cənclər İdman Məktəbinin komandası təmsil etmişdir. Komandamız yarışları III yerdə başa vurmuşdur.

Taekvando üzrə Qax şəhərində keçirilən yarışlarda da idmançılarımızın nəticələri sevindirici olmuşdur. Bu yarışlarda idmançılarımız III Dan Qara Kəmər ustası, məşqçi müəllim Xəyal Əzizovun rəhbərliyi ilə çıxış etmişlər. Onlardan 53 kq. çəki dərəcəsində Əzizov Cavid Xəyal oğlu və 44 kq. çəki dərəcəsində Məmmədova Fidan Elbrus qızı I yerə, 44 kq. çəki dərəcəsitndə Bayramova Mələykə Bəxtiyar qızı II yerə və 27 kq. çəki dərəcəsində Əzizov Vasif Xəyal oğlu III yerə sahib olmuşlar. Komanda hesabında isə təmsilçilərimiz II yeri qazanmüşlar.

Voleybol üzrə Oğuz şəhərində keçirilən yarışlarda komandamız qalib yerlərdən birini əldə edə bilməsə də yarışlarda sonadək müxtəlif komandalarla həvəslə mübarizə aparmış və nəticədə idmançılarımız yüksək yarış təcrübəsi qazanmışlar.

I Avropa Oyunlarının təbliği münasibətilə keçirilən yarışlar respublikamızın idman həyatına, həmçinin məktəblilərin idmana olan sevgisinin artmasına əhəmiyyətli dərəcədə təsir etmişdir. Sonda rayonumuz baş hakimlər və hakimlər heyəti tərəfindən dəyərləndirilərək yarışlarda idmançıları ilə nümunəvi iştirak edən rayonlar sırasına daxil edilmişdir.

**Ədalət ƏLİYEV,**
**Qəbələ Rayon Uşaq-Gənclər İdman məktəbinin direktoru.**

# Diaqnostika mərkəzində qanvermə aksiyası

Müstəqil Azərbaycan Respublikasının dövlət rəhbərliyi tərəfindən talassemiyalı və hemofiliyalı xəstələrə daim xüsusi qayğı göstərilməkdədir. Cənab Prezident İlham Əliyev indiyə qədər donorluğun və qan xidmətinin inkişafına dair bir sıra xüsusi sərəncamlar imzalamış və həmçinin müvafiq qanunlar qüvvəyə minmişdir. Hətta talassemiya ilə mübarizəyə dair 2015—2020-ci illər üçün dövlət proqramı qəbul edilmişdir. Hələ bundan xeyli əvvəl isə ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva «Talassemiyasız həyat naminə» proqram layihəsinin başlanmasını elan etmişdir.



Hazırda Axərbaycan Respublikasının Səhiyyə Nazirliyi və onun yerli stukturları, yerli icra orqanları cənab Prezidentin sərəncamları və dövlət proqramlarının icrası məqsədilə yerlərdə tədbirlər keçirilməsini davam etdirirlər. Növbəti tədbir iyunun 4-də rayon müalicə-diaqnostika mərkəzində keçirilmişdir. Mərkəzin baş həkiminin əvəzi Kamal Məmmədovdan aldığımız məlumata görə B. Eyvazov adına Hemotologiya Transfüziologiya İnstitutu nəzdində fəaliyyət göstərən Mərkəzi Qan Bankının həkim briqadası gün ərzində mərkəzdə mütəşəkkil qanvermə aksiyası keçirmişdir. Aksiyanın səmərəli təşkilində rayon icra hakimiyyəti və müalicə-diaqnostika mərkəzi rəhbərliklərinin xüsusi köməyi qeyd olunmalıdır. Bir gün ərzində aksiyaya 215 nəfər cəlb olunaraq müayinə olunmuş, onlardan uyğun gələn 174 nəfəri könüllü qan vermişdir.

**Nadir ATAKİŞİYEV.**
**Foto S. Umuyevindir.**